# Ovqat şairi



Bahar Bərdəli



*Yağma yağış....*
*Sən yağanda xatirələr düşür yada,*
*Sən yağanda*
*Sənlə birgə ürəyimə yağır o da...*

Yağışın yağması, - bu təbiət hadisəsinin poeziyada tərənnümü gənc şair Xəyal Rzaya məxsusdur. Onun min illər boyu təkrar olunan və yüzlərlə şeirlər, mahnılar qoşulmuş yağışa öz münasibətini, baxışlarını diktə etməsi göz önündədir.

*Yağma yağış....*
*...Mən yağmıram... Səndən də çox*
*Dərd yükünü çəkə-çəkə...*
*Hər gün bir az çökə-çökə...*

Bu günlərdə “Ulduz” jurnalının aprel sayı ilə tanış olarkən Xəyal Rzanın şeirlərini oxudum. Və bu qənaətə gəldim ki, Xəyal Rza təbiət və ovqat şairidir. Ədəbiyyata, sözə təbiətin özündən, təbiətin içindən keçib gəlib. Öz yolu, öz cığırı var. Düşünürəm ki, gələcəkdə bu poetik parçalardan ibarət çoxlu əbədi toplular yaranacaq:

*Yollar tərsinə...*
*Ümidlər, arzular tərsinə...*

Ədəbiyyata gələn yeni gənclik elə ilk sözünü təbiətin özünə və ilk sevgisinə deyir. Kimisi bu sözü, fikri, düşüncəni laylalar, bayatılar, oxşatmalar şəklində, kimisi də sərbəst-hecasız, vəznsiz, ürəyi istədiyi kimi ifadə edir. Əsas odur ki, hər kəs gördüyü, duyduğu, hiss etdiyi hadisələri poetik formada ifadə edə bilir:

*Dərd qalaq-qalaq,*
*Batman-batman....*
*Yığılıb bir-birinin üstünə...*
*Aşıb keçməyə oğul istəyir!*

Onun şeirləri təbiidir, səmimidi, sadədi. Onun ömrü qarşısına böyük məqsədlər qoyub arzu-xəyalla yola çıxan şair ömrüdü. O, bu yolda nələrə rast gəlmir? Çox vaxt bu yolda arzu, ümid, istək, məqsəd reallıqla, zamanın diqtəsi ilə üst-üstə düşmür. Əksinə, dərd, əzab, qəm-kədər qalaqlanıb üst-üstə yığılır və keçilməz dağ olur! Onda gəl bu dağı aş görüm, necə aşırsan!?

Xəyal Rza həm də məhəbbət şairidir:

*Ayaqlarım yerimir,*
*Səsə qaça bilmirəm.*
*Ay qapımı döyən qız,*
*Qapı aça bilmirəm...*

Şair ürəyi onun könül qapısını döyənlərə səslənir. Hər “sevirəm” deyənlərə inanmır, etibar etmir, bel bağlamır. Çünki bundan əvvəl bu qapını açıb gələn qız tez qayıdıb, tez gedib. Bəlkə bu könül qapısını asanlıqla açıb, ona görə asanlıqla da çıxıb gedib? O, sevən ürəyin qədir-qiymətini bilməyib? Odur ki, şair dilə gəlib deyir:

*Bu qapı taxta deyil,*
*Necəsə sındırasan...*
*Bu qapı qanan deyil,*
*Söz ilə qandırasan...*
*Könül qapısıdır bu,*
*Açılmaz hər döyənə.*
*Inan ki, bel bağlamır,*
*Hər sevirəm deyənə!*

Xəyal Rza dövrünün ictimai-siyasi hadisələrinə də öz poetik münasibətini özünəməxsus şəkildə bildirə bilib. Məsələn, onun Cənubla bağlı “Ora Bakı – bura Təbriz” şeiri xəfif bir ürək titrəyişi ilə yazılıb. Təbriz hələ də əlçatmaz, ün yetməzdir. Təbriz hələ də qəm-kədər oylağıdır. Bakıdan – Şimaldan uzaq düşən bu Cənub şəhəri nə vaxtsa şairin də əbədi oylağına çevriləcək. Şair ürəyi buna inanır və ümid edir.

Şairin jurnalda çap olunan “Qırmızı”, “Susub”, “Qoy, ölüm sevinsin”, “İtirdim”, “Rənglər”, “Təzə gəlin” kimi şeirləri də oxunaqlıdı, diqqətə layiqdi. Hər şeir şairin poetik ovqatının məhsuludur.

“Sarı çiçəkli matəm bayrağı” adlı şeirini isə Xəyal Rza Vaqif Səmədoğlunun ölüm günündə qələmə alıb. Vaqif Səmədoğlu xəstəlik dövründə yazdığı şeirində deyir: “İlahi, yatağın nə sağında, nə solunda, nə bir qızın qolunda, ...Nə söyüd kölgəsində, nə dünyanın ən azad ölkəsində yatmaq istəmirəm....”

*İlahi,*
*Dar quyu dibində,*
*Qaranlıq nəm içində*
*İşıqlı qəm içində,*
*Ağrısız*
*Bir az yatmaq istəyirəm...*

Ağrının dəhşəti, yuxusuzluğun ondan da dəhşətli olması göz önündə canlanır. Şairin son günləridi. Bu ağrıya, əzaba nə qədər dözmək olar ki... “Dar quyu dibində, Qaranlıq nəm içində yatmaq”... Təki, az da olsa yatmaq istəyi... Xəyal Rza isə şeirində artıq əzablarına son qoyulmuş, ağrı-acının bilinmədiyi əbədiyyətə köçən Vaqif Səmədoğlunun dəfnindən sonrakı anını təsvir edir:

*... Dar quyu,*
*Dibi qaranlıq və nəm...*
*Ağrısız-filansız*
*Bir az yatmaq istəyən şairi*
*Əbədi yatmağa göndərdik bu dəm...*

Deməк, Xəyal Rza gördüyü, duyduğu hadisəyə həssaslıqla, şair ürəyi ilə yanaşır, öz sözünü pıçıldayır. Elə pıçıldayır ki, onu hər kəs eşidə bilir!

Mən bu yaradıcı ömrün işığında Xəyal Rzaya sağlam həyat, ovqat, düşüncə və yeni-yeni poetik topluların sevincini yaşamağı arzulayıram.